**Azərbaycan Respublikası Nazirlər Kabinetinin "Azərbaycan Respublikası ərazisində dövlət mühafizəsinə götürülmüş daşınmaz tarix və mədəniyyət abidələrinin əhəmiyyət dərəcələrinə görə bölgüsünün təsdiq edilməsi haqqında" 2001-ci il 2 avqust tarixli 132 nömrəli və "Azərbaycan Respublikası Mədəniyyət və Turizm Nazirliyinin strukturuna daxil olmayan tabeliyindəki qurumların Siyahısı"nın təsdiq edilməsi haqqında" 2014-cü il 17 iyun tarixli 196 nömrəli qərarlarında dəyişikliklər edilməsi barədə**

AZƏRBAYCAN RESPUBLİKASI NAZİRLƏR KABİNETİNİN QƏRARI

"Azərbaycan Dövlət Musiqili Teatrına və Azərbaycan Dövlət Rus Dram Teatrına "akademik" statusu verilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2019-cu il 5 mart tarixli 1012 nömrəli Sərəncamının 1.3-cü bəndinin icrasını təmin etmək məqsədilə Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

1. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2001-ci il 2 avqust tarixli 132 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2001,   8, maddə 555; 2005,   11, maddə 1065; 2006,   12, maddə 1161; 2007,   7, maddələr 737, 738; 2008,   1, maddə 36,   2, maddə 104,   6, maddələr 582, 584, 586,   7, maddələr 680, 681, 682; 2009,   7, maddə 609,   10, maddə 848; 2010,   6, maddə 566,   7, maddə 704,   8, maddə 760; 2012,   3, maddə 264,   6, maddə 636; 2013,   3, maddə 338,   4, maddə 440,   6, maddə 727,   10, maddələr 1201, 1213; 2014,   1, maddə 57,   5, maddə 586,   7, maddə 911; 2015,   4, maddələr 460, 480,   7, maddələr 887, 900,   10, maddə 1216; 2016,   5, maddə 956; 2018,   5, maddə 1123,   10, maddə 2144) ilə təsdiq edilmiş 2 nömrəli əlavə - "Ölkə əhəmiyyətli daşınmaz tarix və mədəniyyət abidələrinin siyahısı"nın "Memarlıq abidələri" bölməsinin "Səbail rayonu" hissəsinin "Abidənin adı" sütununda aşağıdakı dəyişikliklər edilsin:

1.1. 158-ci bəndə "Dövlət" sözündən sonra "Akademik" sözü əlavə edilsin;

1.2. 160-cı bənddə "Dövlət Musiqili Komediya" sözləri "Dövlət Akademik Musiqili" sözləri ilə əvəz edilsin.

2. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2014-cü il 17 iyun tarixli 196 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2014,   6, maddə 749; 2015,   3, maddələr 333, 338,   4, maddə 455,   6, maddə 801,   10, maddə 1220,   11, maddə 1425; 2016,   6, maddə 1195,   10, maddə 1731,   11, maddə 1944,   12, maddə 2243; 2017,   4, maddə 635,   11, maddə 2174; 2018,   6, maddə 1353,   9, maddə 1951) ilə təsdiq edilmiş "Azərbaycan Respublikası Mədəniyyət və Turizm Nazirliyinin strukturuna daxil olmayan tabeliyindəki qurumların Siyahısı"nın "II. Təsərrüfathesablı qurumlar" bölməsinin "1. Teatr və konsert müəssisələri" hissəsinin 1.3-cü və 1.4-cü bəndlərinə "Dövlət" sözündən sonra "Akademik" sözü əlavə edilsin.

**Azərbaycan Respublikasının Baş naziri Novruz MƏMMƏDOV**

Bakı şəhəri, 10 iyun 2019-cu il
262